# Mündəricat


01 2024-cü ildə Təhsilin Vəziyyəti

02 Süni intellektin "çoxşaxəli" etikası haqqında

03 Ekran vaxtının idarə edilməsi: Şagirdləri diqqətin yayınmasına qarşı necə qorumaq və təchiz etmək olar?

04 Uşaqların özəl erkən uşaqlıq təhsilinə cəlb edilməsi




# 2024-cü ildə Təhsilin Vəziyyəti

01

Car ilin may ayında Milli Təhsil Statistikası Mərkəzi tərəfindən "2024-cü ildə Təhsilin Vəziyyəti" adlı hesabat nəşr olunmuşdur. Hesabat ABŞ-da erkən uşaqlıq təhsilindən başlayaraq ali təhsil səviyyəsi də daxil olmaqla müxtəlif səviyyələri əhatə edən təhsilin cari vəziyyətinə hərtərəfli baxışı təqdim edir. Hesabat siyasətçilərə və ictimaiyyətə təhsilin irəliləyişinə nəzarət etmək və təkmilləşdirmə sahələrini müəyyən etmək məqsədi daşıyır. Bundan əlavə məktəblərə qeydiyyat, şagird nailiyyəti, müəllimlərin yerdəyişməsi, təhsil maliyyəsi və beynəlxalq araşdırmalar üzrə məlumat və təhlillər hesabatda öz əksini tapır.

Azyaşlı uşaqlar arasında məktəbə qəbul nisbətlərindəki dəyişikliklər hesabatda diqqəti cəlb edən nüanslardan biridir. Belə ki, 3-5 yaşlı uşaqların erkən uşaqlıq təhsilinə (məktəbəqədər təhsilə) qəbul nisbəti 2012-2019-cu illər arasında 59-61% aralığında olsa da, 2021-ci ildə 53% təşkil etmişdir. Bununla belə 2022-ci ilə qədər bu nisbət 59 %-ə yüksəlmişdir.

Həmçinin azyaşlı uşaqların dövlət ibtidai və orta məktəblərinə qəbul nisbətində də dəyişikliklər müşahidə olunmuşdur. Belə ki, 2012-2019-cu illər arasında azyaşlı uşaqların dövlət ibtidai və orta məktəblərinə qəbul nisbəti 2% artaraq 49,8 milyondan 50,8 milyona, 2020-ci ildə isə 3% azalaraq 49,4 milyon şagirdi əhatə etdiyi müşahidə olunub. 2021 və 2022-ci illərdə isə azyaşlı uşaqların dövlət ibtidai və orta məktəblərinə qeydiyyat nisbəti təxminən 49,4 milyon şagirdi əhatə etmişdir.

Eyni zamanda hesabatda ali məktəbə qəbul pilləsinə qeydiyyat tendensiyalarına da nəzər yetirilmişdir. Aydın olmuşdur ki, 2022-ci ildə kolleclərə qəbul nisbətləri əvvəlki illərlə müqayisədə nisbətən sabit qalıb. Orta məktəbi bitirənlərin 45%-i 4 illik təhsil müəssisələrinə, 17%-i isə 2 illik təhsil müəssisələrinə daxil olub. Buna baxmayaraq 2014-cü ildə orta təhsilə başlayan şagirdlər, 2009-cu ildə təhsilə başlayan şagirdlərlə müqayisədə təhsil proqramlarını tamamlayarkən daha yüksək performans göstəricilərinə malik olmuşlar. Xüsusilə STEM sahələrində assosiasiya səviyyəsəsində (subbakalavr diplomu ya da bakalavr diplomundan aşağı, orta məktəb diplomundan yuxarı) verilən dərəcələrin sayı artmışdır. Həmçinin, bakalavr tələbələri üçün orta təhsil haqqı və ödənişlər 2022-2023-cü illərdə əvvəlki illə müqayisədə bir qədər azalmış, müxtəlif növ təhsil müəssisələrində isə fərqli tendensiyalar müşahidə edilmişdi.

Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, özəl təhsil müəssisələrinin bağçadan12 illik təhsilə qədər qeydiyyatı 2011-ci ildə 4,5 milyon, 2021-ci ildə isə 4,7 milyon olmuşdur.
Həmçinin, şagirdlərin xüsusiyyətləri, o cümlədən demoqrafik məlumatlar və xidmətlər üçün identifikasiyasının da zamanla dəyişdiyi hesabatda qeyd olunur. Belə ki, 2012-2022-ci il aralığında Amerika hindu/Alyaska yerlisi, qara dərili və ya ağ əsilli şagirdlərin dövlət məktəblərinə qeydiyyatında azalma, Asiya, İspan, iki və ya daha çox irqdən olan şagirdlərin isə dövlət məktəbinə qeydiyyat nisbətində artma müşahidə olunmuşdur.

Hesabatda, Təhsil Aktı (IDEA) çərçivəsində təhsil xidmətlərindən yararlanan 3-21 yaş aralığında əliliyi olan təhsilalanların sayı 2012-2013-cü tədris ilində 6,4 milyondan 2022-2023-cü illərdə 7,5 milyona yüksəlməsi qeyd olunmuşdur. Bu da ümumi dövlət məktəblərinə qeydiyyat nisbətinin 13%-dən 15%-ə yüksəldiyinin göstəricisidir.  2022–2023-cü tədris ilində 50 ştatda və Kolumbiya dairəsində Təhsil Aktı (IDEA) çərçivəsində xidmət göstərən dövlət məktəbində təhsil alan şagirdlər 12%-dən 21%-ə qədər artmışdır. Ən yüksək faizlər Pensilvaniya, Nyu York və Mendə (21%), ən aşağı isə Aydaho və Havayda (12%) ştatlarında qeydə alınıb. ABŞ-nin digər ştatlarında bu nisbətlər Puerto Rikoda 37%, Şimali Mariana adalarında 11% və ABŞ-nin Virciniya adalarında 9% təşkil edib.
2022-2023-cü tədris ilində IDEA çərçivəsində xidmət göstərilən şagirdlər arasında ən çox rast gəlinən əlillik növləri: Xüsusi öyrənmə qüsurları (32%), nitq və ya dil qüsurları (19%), digər sağlamlıq pozğunluqları (15%) və  autizm (13%) hesabatda vurğulanmışdır.



Həmçinin hesabatda dövlət məktəblərində ingilis dilini öyrənənlər (EL) haqqında məlumatlar da yer alır. Belə ki, dövlət məktəblərində ingilis dilini öyrənənlərin faizi zamanla artmışdır. 2021-ci ildə dövlət ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərin təxminən 10,6%-i ingilis dilini öyrənənlər kimi təsnif edilir. Belə ki, bunun da təxminən 5,3 milyon şagird olduğu bildirilir. Bununla belə, ingilis dilinin tədrisi üzrə təhsil proqramlarından yararlanaraq ingilis dilini öyrənənlərin faizi göstəriciləri 2011-ci ildən (94,5%) 2021-ci ilə (93,1%) qeyd olunan qədər azalıb. Bu proqramlardan yararlanan ştatlara Qərbi Virciniya, Nevada və Merilend (hər biri 100%), Vircinia və Texas (hər biri 99.9%), Florida və Cənubi Karolina (hər biri 99,8%), Viskonsin (99,4%), Aydaho (99,3%), Tennessi (98,9%) daxildir. Hesabatda yer alan bu nəticələr ABŞ təhsil sistemində ingilis dili öyrənənlərlə bağlı tendensiyaları və çətinlikləri vurğulayır.

2011-2012 tədris ilindən 2021-2022-ci tədris ilinə qədər ABŞ-da orta ACGR məzuniyyət dərəcəsi 80%-dən 87%-ə yüksəldiyi hesabatda qeyd olunur. Eyni zamanda hesabatda məktəbə qeydiyyatdan keçməyən və ya orta məktəbi bitirməyə dair şəhadətnamə almayan 16-24 yaşlı gənclərin faiz nisbəti 2012-ci ildəki 7,0%-dən 2022-ci ildə 5,3%-ə çatmışdır.

1970-ci illərdən etibarən ABŞ şagirdlərinin oxu və riyazi bacarıqlarını qiymətləndirən Təhsildə Tərəqqinin Milli Qiymətləndirilməsi (NAEP) məlumatları da hesabatda yer alır. Belə ki, 2022–2023-cü tədris ilinin son məlumatları göstərdi ki, 2020-ci illə müqayisədə 13 yaşlı uşaqlar üçün oxu üzrə orta ballar 4 bal, riyaziyyat üzrə 9 bal azalıb. Son 10 ildə oxu üzrə nəticələr 7 bal, riyaziyyat üzrə isə 14 bal aşağıdır. Bundan əlavə son bir ayda 5 gün və ya daha çox məktəbə getməyən 13 yaşlı uşaqların faiz göstəriciləri 2020-ci ildə 5%, 2023-cü ildə isə 2 dəfə artaraq 10% olmuşdur. Belə ki, dərsə davamiyyəti qənaətbəxş olan şagirdlərin ümumi balları daha yüksək olub.

PİSA nəticələrinə gəldikdə isə, 2022-ci ildə ABŞ oxu və elm üzrə OECD orta göstəricisindən yüksək, lakin digər təhsil sistemləri ilə müqayisədə riyaziyyatda aşağı nəticə göstərib. Təhsil nailiyyətlərində isə 2022-ci ildə ABŞ-da 25-64 yaş arasında olan şəxslərin 92%-i orta məktəbi bitirmə diplomuna və ya ekvivalentinə malik olub. Bu da OECD ortalamasından (80%) çoxdur. Bundan əlavə bu yaş qrupundakı amerikalıların 50%-i OECD ortalamasının üstündə (41%) məzun olmuşdur. 2012-2022-ci illərdə orta məktəbi bitirən və məzun olan 25-34 yaş arası şəxslərin nisbəti həm ABŞ-da, həm də ümumilikdə OECD-ə daxil olan ölkələrdə artmışdır.

Hesabatda həmçinin, ABŞ məktəblərinin maliyyəsi haqqında da məlumatlar yer alır. Belə ki, 2020-2021-ci tədris ilində ABŞ-da dövlət ibtidai və orta məktəblərinin gəlirləri 954 milyard dollar təşkil etmişdi. Bu gəlir infilyasiya səbəbindən 2022-2023-cü illərdədə sabit qalmışdır. Budan əlavə, dövlət məktəblərinin ümumi gəlirlərinin 11%-ni (101 milyard dollar) federal mənbələr, 46%-ni (437 milyard dollar) dövlət mənbələri, 44%-ni (416 milyard dollar) isə yerli mənbələr təşkil etmişdir.
Həmçinin müxtəlif növ qurumlarda uzunmüddətli tendensiyalar fərqli olmuşdur. Belə ki, təhsil xərclərinin orta göstəriciləri 2022-2023-cü tədris ilində 2012-2013-cü tədris ili ilə müqayisədə aşağı göstəriciyə malikdir.

Birləşmiş Ştatlarda bütün institutlarda ilk dəfə bakalavr tələbələri üçün orta təhsil və ödənişlər 2021–2022-ci ildən 2022–2023-cü ilə qədər inflyasiya tempindən az artmasını göstərən məlumatlar da hesabatda öz əksini tapır. 2022–23-cü illərdə orta təhsil haqqı və ödənişlər 2012–2013-cü illə müqayisədə 4 illik özəl kommersiya təşkilatları üçün 14%, özəl kommersiya məqsədli 2 illik müəssisələr üçün 13% və 4 illik dövlət müəssisələri üçün 5 dəfə aşağı olmuşdur.
Bunun əksinə olaraq isə 2022–23-cü illərdə orta təhsil haqqı və ödənişlər 2012–13-cü illərlə müqayisədə 4 illik özəl qeyri-kommersiya təşkilatları üçün 8%, 2 illik özəl qeyri-kommersiya təşkilatlar üçün 5% və 2 illik dövlət institutları üçün 1% yüksək olmuşdur.



Hesabatda 2020-2021-ci tədris ilində ABŞ-nin dövlət məktəblərində əyani və qiyabi fəaliyyət göstərən müəllimlərin ümumi sayının 3,8 milyon olduğu (ibtidai və orta məktəb müəllimi) qeyd olunur. Dövlət məktəblərində fəaliyyət göstərən müəllimlərinin 90% standart dövlət müəllimlik sertifikatına və ya qabaqcıl peşəkar sertifikata malikdir. Bu sertifikatlar da müəllimlərə dərs deməyə icazə verən və onların bütün dövlət tələblərinə cavab verdiyini göstərən etimadnamələrdir. Gender mövzusuna nəzər yetirdikdə isə, dövlət ümumtəhsil məktəblərində çalışan müəllimlərin 77%-nin qadın olduğu nəzərə çarpır. Bu da ABŞ -da müəllim peşəsində bərabərliyin təmin olunmadığının göstəricisidir.

Demoqrafik xüsusiyyətlərə gəldikdə isə dövlət ümumtəhsil məktəblərində fəaliyyət göstərən müəllimlərinin 80%-i ağ dərili, 9%-i İspan, 6%-i isə qara dərili olduğu qeyd olunur. Hesabatda müəllimlərin iş yerini dəyişmə və ya işdən çıxarılma prosesinə də nəzər yetirilib. Belə ki, 2020-2021-ci tədris ilində dövlət ümumtəhsil müəssisələrində çalışan müəllimlərin 84%-i dərs ilində eyni məktəbdə, 8%-i başqa məktəbədə pedaqoji fəaliyyətini davam etdirdiyi və yalnız 8% müəllimin öz peşəsini tərk etdiyi hesabatda qeyd olunur.

Hesabatda həmçinin ABŞ-da karyera və texniki təhsil haqqında da məlumatlar yer alır. Birləşmiş Ştatlar Karyera və Texniki Təhsil (CTE) tələbələrə iş sahəsində lazımı bilik, bacarıqları təmin edən kurs və proqramlara xüsusi diqqət yetirir. Belə ki, 2019-cu ildə orta məktəb məzunlarının əksəriyyəti, təxminən 85% -i peşə (karyera) və texniki təhsil (CTE) kurslarına qatıldığı məlum olmuşdur. Kursda tələbələrə təqdim edilən ümumi mövzulara  informasiya texnologiyaları, insan Resursları, biznes və marketinq daxildir.

Diqqətəlayiqdir ki, peşə (karyera) və texniki təhsilinə (CTE) cəlb olunanların daha yüksək nisbəti məzun olduqdan sonra ən yüksək ixtisas dərəcəsi kimi dosent dərəcəsi almışdı. Bununla yanaşı peşə (karyera) və texniki təhsilinə (CTE) cəlb olmayanlar isə bakalavr və ya daha yüksək dərəcə almışdır.

Mənbə: Irwin, V., Wang, K., Jung, J., Kessler, E., Tezil, T., Alhassani, S., Filbey, A., Dilig, R., and Bullock Mann, F. (2024). Report on the Condition of Education 2024 (NCES 2024-144). U.S. Department of Education. Washington, DC: National Center for Education Statistics. Retrieved [date] from https://nces.ed.gov/pubsearch/pubsinfo.asp?pubid=2024144.

# Süni intellektin "çoxşaxəli" etikası haqqında

Müəllimlər, idarəçilər, siyasətçilər, tələbələr üçün təhsil təcrübələri və tendensiyaları barədə ətraflı xəbərlər, təhlillər və hesabatların yer aldığı EdWeek  təhsil pillələri və təhsil siyasətləri ilə bağlı mövzularla tanınan bir nəşrdir.  Cari ayda EdWeek platformasında Foundry10 (tədqiqat, innovasiya və təcrübə vasitəsilə öyrənmə təcrübələrini təkmilləşdirməyə yönəlmiş təhsil təşkilatı) şirkətinin baş elmi işçisi Cennifer Rubinin "Süni intellektin (AI) "çoxşaxəli" etikası haqqında" məqaləsi nəşr olunmuşdur. Müəllif məqalədə müəllimlər və tam orta məktəb şagirdləri arasında süni intellektin mənimsənilməsi ilə bağlı etik məsələləri araşdırmışdır. Beynəlxalq Təhsil Texnologiyaları Cəmiyyətinin illik konfransında təqdim olunmaq üçün hazırlanan cari araşdırmaya təhsildə, xüsusən də texnologiya və yaradıcılığı əhatə edən sahələrdə yeni ideyaları, yanaşmaları tədqiq etmək məqsədilə 15 müəllim və 33 şagird cəlb edilmişdir. Araşdırmanın məqsədi təhsildə süni intellektlə bağlı kompleks qavrayış və narahatlığı aşkar etməkdir.
Araşdırma nəticəsində ChatGPT kimi süni intellekt alətlərinin dərs planlaş-dırılması və yarışma-rəqabət tipli oyun əsaslı tapşırıqları asanlaşdırmaq üçün əlverişli bir vasitə olduğu aydın olmuşdur. Buna baxmayaraq, süni intellekt tərəfindən yaradılan məlumatların etibarlılığı ilə bağlı əhəmiyyətli problemin olduğu da məlum olmuşdur.

Eyni zamanda cavabların təhlilindən  ChatGPT kimi süni intellekt alətlərindən əldə olunan cavabların yenilənməməsi və təhsil standartlarına uyğun olmadığı məqalədə qeyd edilmişdir. Bu da süni intellektin tədris keyfiyyətinin artırılmasında faydası ilə bağlı şübhələri artırır. Bundan əlavə araşdırma nəticəsində müəllimlərin ChatGPT-lə bağlı narahatlıqları da məlum olmuşdur. Belə ki, şagirdlərin tapşırıqları yerinə yetirməkdə süni intellektdən hədsiz dərəcədə istifadəsinin asılılığa səbəb olacağından və onların gələcək karyeraları üçün vacib olan tənqidi düşünmə bacarıqlarını zəiflədəcəyindən  narahatlıq qeyd olunmuşdur.

Həmçinin araşdırmada müəllimlər süni intellektin qiymətləndirmə və rəy verməkdə rolu ilə bağlı ciddi etik dilemmalarla qarşılaşdıqlarını da qeyd ediblər. Bir çoxları təhsili qiymətləndirərkən insanların qarşılıqlı əlaqəsinin vacibliyini qeyd ediblər. Buna görə də bu sahəni "çoxşaxəli" hesab etdiklərini vurğulayıblar. Hətta məqalədə bəzi müəllimlərin ənənəvi qələm və kağız texnikalarına qayıtdıqları da öz əksini tapır. Buna səbəb kimi şagirdlərin təhsildə rəqəmsal inteqrasiya tendensiyasına zidd olaraq süni intellektdən sui-istifadə etmələrinin qarşısını almaq məqsədi göstərilib.

Digər tərəfdən orta məktəb şagirdlərinin süni intellektə dair nüanslı bir perspektiv nümayiş etdirdiyi də məqalədən aydın olmuşdur. Belə ki, onlar əsasən AI-dən plagiat üçün deyil, esse mövzuları və ya qrammatikanın dəqiqləşdirilməsi kimi humanitar tapşırıqlar yerinə yetirmək məqsədi ilə istifadə etdiklərini vurğulayırlar. Şagirdlər etik narahatlıqlarını, xüsusən qiymətləndirmədə ədalətlilik və süni intellektdən istifadə ilə bağlı aydın təlimatlara ehtiyac olduğunu əsaslandırırlar. Belə ki, şagirdlər məktəblərində strukturlaşdırılmış siyasətlərə və etik çərçivələrə ehtiyac olduğunu qeyd ediblər.

Ümumilikdə, məqalədə  akademik dürüstlük, tənqidi düşünmə bacarıqlarının inkişafı ilə bağlı süni intellektin imkanlarından istifadə etmək üçün hərtərəfli etik təlimatlara və təhsil strategiyalarına təcili ehtiyac olduğu vurğulanr. Süni intellekt təhsil mühitinə nüfuz etməyə davam etdikcə müəllimlər, siyasətçilər, şagirdlər texnologiyanın öyrənmə mühitində ədalətli və effektiv inteqrasiyasını təmin və idarə etməlidirlər.

Mənbə: Klein, A. (2024, June 12). 4 Things to Know About AI's 'Murky' Ethics. Education Week. https://www.edweek.org/technology/4-things-to-know-about-ais-murky-ethics/2024/06

# Ekran vaxtının idarə edilməsi: Şagirdləri diqqətin yayınmasına qarşı necə qorumaq və təchiz etmək olar?

03

İƏİT (OECD) tərəfindən cari ayda Şagirdlərin Beynəlxalq Qiymətləndirilməsi Proqramının (PISA) 2022 nəticələrinə əsaslanan sənəd təqdim olunub. Sənəddə ekran vaxtının idarə edilməsi, onun şagirdlərin diqqətinin yayınmasına, riyaziyyat fənnindən müvəffəqiyyətinə və məktəbə bağlılığına təsirindən bəhs edilir. Sənədə əsasən, İƏİT-ə (OECD) daxil olan ölkələrdə 15 yaşlı şagirdlərin demək olar ki, hamısının (orta hesabla 98%) evdə öz smartfonu olduğu məlum olmuşdur.

Məktəbdə öyrənmək üçün rəqəmsal cihazların istifadəsinin riyaziyyat ballarına müsbət təsir göstərdiyi sənəddə öz əksini tapır. Belə ki, PISA 2022 nəticələrinə görə məktəbdə öyrənmək məqsədilə gündə bir saatdan beş saata qədər rəqəmsal cihazlardan istifadə edən şagirdlərin riyaziyyat nəticələri, bu cihazlardan istifadə etməyənlərlə müqayisədə 20 bal daha yüksək olmuşdur. Bunun əksinə olaraq isə məktəbdə asudə vaxt keçirmək üçün rəqəmsal cihazlara bir saatdan çox vaxt sərf edən şagirdlərin riyaziyyat nəticələri daha aşağı olmuşdur. Belə ki, nəticələrə görə asudə vaxtlarını gündə bir saatdan çox rəqəmsal cihazlarla keçirən şagirdlər, asudə vaxtlarını rəqəmsal fəaliyyətlərə sərf etməyənlərlə müqayisədə riyaziyyatda 5 ilə 20 bal arasında aşağı nəticə göstəriblər.

Bundan əlavə məktəbdə rəqəmsal cihazların istifadəsinin şagirdlərin fəaliyyətinə müsbət və mənfi təsiri də sənəddə qeyd edilir. Belə ki, müsbət təsirlərə resurslara çıxış, fərdiləşdirilmiş öyrənmə, əməkdaşlıq və rəqəmsal bacarıqların inkişafı daxildir. Bununla belə rəqəmsal cihazların həddindən artıq və ya qeyri-münasib istifadəsi diqqətin yayınmasına, məlumatın həddən artıq yüklənməsinə, sağlamlıqla bağlı narahatlıqlara və kibertəhlükəsizlik risklərinə səbəb olduğu da sənəddə qeyd olunur.

Sənədə əsasən, İƏİT (OECD) ölkələrində orta hesabla hər üç şagirddən biri riyaziyyat dərsində rəqəmsal cihazlardan istifadə edərək diqqətinin yayındığını bildirir. Bu o deməkdir ki, şagirdlərin təqribən 30%-i riyaziyyat dərsləri zamanı rəqəmsal cihazlardan yayınır.

Qeyd etmək vacibdir ki, rəqəmsal cihazlarla işləyərkən diqqəti yayınan şagirdlərin faizi ölkələr arasında dəyişir. Bəzi ölkələrdə daha yüksək faiz (məsələn, Argentina, Uruqvay və Çili), digərlərində isə aşağı faizlər (məsələn, Yaponiya və Koreya10%-dən az) müşahidə olunur. Buna görə də tarazlığı saxlamaq, rəqəmsal cihazdan istifadəni təhsil məqsədləri ilə uyğunlaşdırmaq şagirdlərin öyrənmə və məşğulluğunu dəstəkləmək üçün çox vacibdir.

Bununla belə, gündə üç saata qədər video oyunlar oynayan şagirdlər, bir saatdan az video oyunlara maraq göstərənlərlə müqayisədə riyaziyyatda daha yüksək performansı ilə diqqəti cəlb edir. Həmçinin, oynanan video oyunların növü akademik performansa da təsir edir. Belə ki, kollektiv onlayn oyunlar müvəffəqiyyətə mənfi təsir göstərdiyi vurğulanır. Çünki, kollektiv onlayn oyunlara maraq göstərən şagirdlərin həddindən artıq uzun müddət oynamaq ehtimalının daha yüksək olması onların akademik performansına mənfi təsir göstərə bilər. Fərdi oynanılan oyunlara maraq göstərənlər isə performans üstünlüyünə malikdir.

Sənədə əsasən məktəbdə asudə vaxt üçün rəqəmsal cihazlardan istifadə etməyən şagirdlərin ən yüksək faizi Portuqaliya, Ukrayna regionları (27-dən 18-i), Bolqarıstan, Polşa, Çexiya, Rumıniya, Estoniya, Latviya, Macarıstan və Tayland kimi ölkələrdə müşahidə olunur. Belə ki, qeyd olunan ölkələrdə şagirdlərin 20%-dən azının məktəbdə asudə vaxt keçirmək üçün rəqəmsal cihazlardan istifadə etmədiyi məlum olmuşdur.

Eyni zamanda, Kamboca, Paraqvay, Qvatemala, Almaniya və Vyetnam da məktəbdə asudə vaxt keçirmək üçün rəqəmsal cihazlardan istifadə etməyən şagirdlərin mənsub olduğu ölkələr sırasındadır. Bu ölkələrdə şagirdlərin 30%-dən çoxu məktəbdə asudə vaxt keçirmək üçün rəqəmsal cihazlardan istifadə etmədiyini bildirib.



Bunun əksinə olaraq İƏİT-ə (OECD) daxil olan ölkələrdə orta hesabla şagirdlərin dörddə üçü həftə içi sosial şəbəkələrdə bir saatdan çox vaxt sərf etdiyi qeyd olunub. Belə ki, Çili, Danimarka, İrlandiya, İtaliya və Uruqvay kimi ölkələrdə bu nisbət 80%-i ötür. Bununla belə Panama ən aşağı göstəriciyə (48%) malikdir.

Sənəddə qeyd olunur ki, tədris üçün İKT bacarıqları üzrə peşəkar inkişafa malik olan riyaziyyat müəllimlərin sinifdə rəqəmsal cihazlardan istifadə etməsi səbəbindən şagirdlərin diqqəti daha az yayınır. Bu da onu göstərir ki, texnologiyanı tədrisə effektiv tətbiq edə bilən peşəkar müəllimlər rəqəmsal cihazların yaratdığı diqqət yayındıran amilləri idarə etmək və minimuma endirmək bacarığına malikdirlər.

Bundan əlavə TALIS 2018-dən əldə edilən sübutlar göstərir ki, formal təlimin bir hissəsi kimi şagird davranışı və sinfin idarə olunması üzrə təlim keçmiş müəllimlər şagirdlərin rəqəmsal cihazların istifadəsində diqqətinin yayınmamasına imkan verən tədris mühitinin yaradılmasına kömək edə bilər. Buna görə də şagirdlərin diqqətini yayındıran amillərin aradan qaldırılması və diqqətli öyrənmə mühitinin təşviq olunması müəllim hazırlığı prosesində mühüm əhəmiyyət kəsb edir.

Aşağıda qeyd olunan səbəbləri nəzərə alaraq, rəqəmsal cihazlardan istifadə zamanı diqqətin yayınmasını azaltmaq və ya aradan qaldırmaq mümkündür:
Akademik performans: Rəqəmsal cihazlardan istifadə diqqəti yayındırdığından şagirdlərin akademik fəaliyyətinə mənfi təsir göstərə bilər.
Diqqəti yayındıran amilləri azaltmaqla şagirdlər dərslərinə daha yaxşı fokuslana və öyrənmə nəticələrini yaxşılaşdıra bilərlər.

Məktəbə bağlılıq: Diqqəti yayındıran amillər şagirdlərin məktəbə bağlılıqlarına da təsir edə bilər.
Asudə vaxt fəaliyyəti üçün rəqəmsal cihazlarda daha çox vaxt keçirən şagirdlərin məktəbə bağlılıqlarının azaldığı məlum olmuşdur.
Şagirdlərə məktəb icması ilə daha bağlı hiss etdirən, rifah hallarını yaxşılaşdıran və tədris prosesinə diqqəti az yayındıran mühit yaradıla bilər.

Koqnitiv inkişaf: Rəqəmsal cihazlardan həddindən artıq istifadə və daim diqqəti yayındırmaq şagirdlərin idrak inkişafına mane ola bilər. Bu onların diqqətli olmaq, tənqidi düşünmək və məlumatı yadda saxlamaq qabiliyyətinə təsir göstərər. Belə ki, diqqəti yayındıran amilləri məhdudlaşdırmaqla şagirdlər idrak bacarıqlarını təkmilləşdirə və öyrənmə potensiallarını artıra bilərlər.

Rəqəmsal rifah: Həddindən artıq ekran vaxtı və  diqqəti yayındıran amillər şagirdlərin zehni və fiziki inkişafına mənfi təsir göstərə bilər. Eyni zamanda stres, narahatlıq və oturaq həyat tərzinin artmasına səbəb ola bilər. Rəqəmsal cihazdan istifadəyə balanslaşdırılmış yanaşmanı təşviq etməklə diqqəti yayındıran amilləri azaltmaqla şagirdlər texnologiyadan daha effektiv istifadə edə və rifah hallarını prioritetləşdirə bilərlər.

Rəqəmsal bacarıqlar və özünütənzimləmə: Diqqəti yayındıran amillərin məhdudlaşdırılması şagirdlərdə mühüm rəqəmsal bacarıqların və özünü tənzimləməni inkişaf etdirə bilər. Ekran vaxtını tənzimləməklə, diqqəti yayındıran amilləri minimuma endirməklə, şagirdlər tapşırıqları prioritetləşdirməyi, vaxtlarını səmərəli idarə etməyi və özünə nəzarəti öyrənə bilərlər. Çünki, bu bacarıqlar rəqəmsal dünyada gələcək uğurları üçün çox vacibdir.

Beynəlxalq Təhsil İcmalı
İyun 2024



Sənəddə məktəblərdə rəqəmsal cihazlardan istifadə zamanı diqqəti yayındıran amilləri azaltmaq üçün bir sıra tövsiyələr təqdim olunur:

- Effektiv məktəb siyasətlərini həyata keçirin: Rəqəmsal cihazların səbəb olduğu diqqəti yayındıran amilləri məhdudlaşdırmaq üçün effektiv təlimat və qaydaların yaradılması vacibdir.

- Şagirdlərin rəqəmsal bacarıq və davranışlarını təkmilləşdirin: Məktəblər şagirdlərin rəqəmsal səriştəsini və rəqəmsal mühitdə məsuliyyətlilik bacarığını artırmağa diqqət yetirməlidir. Bu isə rəqəmsal cihazlardan səmərəli istifadə etmək, diqqəti yayındıran amilləri aradan qaldıran təhsil proqramları və təşəbbüslər vasitəsilə əldə edilə bilər.

- Özünə nəzarəti və cihazdan məsuliyyətli istifadəni təşviq edin: Şagirdlər, xüsusən də məktəb saatlarında cihazdan istifadə üzərində özlərinə nəzarət etməyə təşviq edilməlidir.

- Müəllim hazırlığını gücləndirin: Müəllimlər texnologiyadan tədris məqsədlərinə uyğun istifadə etmək üçün adekvat təlim almalıdırlar. Belə ki, peşəkar müəllimlər İKT bacarıqları ilə bağlı rəqəmsal cihazları dərslərinə effektiv şəkildə inteqrasiya etməyə və onlardan istifadə zamanı diqqəti yayındıran amilləri minimuma endirməyə kömək edə bilər.

- Məktəb-ailə əməkdaşlığını inkişaf etdirin: Məktəblər rəqəmsal mühitin çətinlikləri, imkanları ilə bağlı aydın ünsiyyət və tövsiyələr vermək üçün valideynlərlə əlbir işləməlidir. Bu valideynlərə övladlarının rəqəmsal cihazlarla qarşılıqlı əlaqəsini daha yaxşı başa düşməyə və dəstəkləməyə kömək edə bilər. Eyni zamanda həm evdə, həm də məktəbdə diqqəti yayındıran amilləri azalda bilər.

Bu tövsiyələri həyata keçirməklə, məktəblər rəqəmsal cihazlardan istifadədə diqqəti yayındıran amilləri minimuma endirən, diqqətli öyrənməni təşviq edən əlverişli öyrənmə mühiti yarada bilər.
Ümumilikdə, PİSA 2022 nəticələri əsasında hazırlanan sənəd məktəblərdə rəqəmsal cihazların istifadəsinə balanslaşdırılmış yanaşmanın zəruriliyini vurğulayır.

Mənbə: OECD (2024), "Managing screen time: How to protect and equip students against distraction", PISA in Focus, No. 124, OECD Publishing, Paris, https://doi.org/10.1787/7c225af4-en.

# Uşaqların özəl erkən uşaqlıq təhsilinə cəlb edilməsi

Maarit Alasuutari, Ville Ruutiainen və Kirsti Karilan tərəfindən "Uşaqların özəl erkən uşaqlıq təhsilinə cəlb edilməsi" adlı məqalə nəşr olunmuşdur. Məqalənin məqsədi finlandiyalı valideynlərin özəl erkən uşaqlıq təhsilinə (ECEC) üstünlük verməsinin səbəblərini araşdırmaqdır.

Məqalədən aydın olur ki, son 15 il ərzində Finlandiyanın ECEC sistemi bazarlaşma və özəlləşməyə məruz qalmışdır. Buna səbəb valideynlərə daha çox seçim imkanı verməkdir. Finlandiyada Erkən uşaqlıq təhsilində (ECEC) artan marketinq və özəlləşdirmə tendensiyası geniş vüsət almışdır. Belə ki, özəl xidmətlərin 2000-ci ildə mövcud 11%-dən 2020-ci ildə 19%-ə yüksəlməsi qeyd olunur. Bu mənzərədə valideyn seçiminin rolu xüsusi vurğulanır. Bu istiqamətdə özəl erkən uşaqlıq təhsilinə cəlb olunan uşaqların valideynlərinin münasibəti araşdırılmışdır. Araşdırmaya dörd yaşlı uşaqların valideynləri cəlb olunmuşdur. Valideynlərlə aparılan müsahibəyə əsasən özəl erkən uşaqlıq təhsilini (ECEC) seçməyin dörd əsas səbəbi müəyyən edilmişdir. Bunlar:
-Əlçatanlıq (yer və iş saatları);
-Pedaqoji amillər (təhsil fəlsəfəsi);
-ECEC müəssisələri (fiziki mühit və resurslar);
-Təhlükəsizlik (təhlükəsizlik).

Belə ki, valideynlərin müsahibəsindən aydın olur ki, erkən uşaqlıq təhsilində əlçatanlıq amillərinə məkan və iş saatları daxildir. Bu da çalışan ailələr üçün xidmətləri daha əlverişli edir.
Pedaqoji amillər valideynlər tərəfindən xüsusi səbəb kimi müəyyən olunmuşdur. Çünki, valideynlər onların dəyərlərinə, keyfiyyətli təhsil gözləntilərinə uyğun gələn xüsusi təhsil fəlsəfələri və tədris metodları axtarırlar.

Özəl Erkən uşaqlıq təhsili müəssisələrində mövcud fiziki mühit və resurslar çox vaxt valideynlərin seçiminə təsir göstərir. Bu da öz növbəsində onların qərar qəbuletmə prosesinə mühüm təsir göstərir. Həmçinin təhlükəsizlik və tərbiyəvi mühitin valideynlər üçün hər şeydən vacib amil olduğu da müsahibələrdən aydın olur. Nəticələr göstərir ki, erkən uşaqlıq təhsilində əlçatanlıq vacib olsa da valideynlər dəyərlərinə uyğun xidmətlər axtaran fəal iştirakçılardır.

Məqalədən Fin valideynlərinin uşaqları üçün ən yaxşı erkən uşaqlıq təhsili variantlarını seçmək azadlığı olduğu görünsə də bu azadlıq tamamilə öz əksini tapmır. Bunun əvəzinə onların seçimlərinə bazar qüvvələri və bazarlaşdırılmış sistem daxilində seçimlərin mövcudluğu ciddi şəkildə təsir göstərir. Eyni zamanda da valideynlərin müstəqil və azad seçim etmələri ideyasına qarşı çıxır. Bu da onların qərarlarının əslində bazar mühiti tərəfindən məhdudlaşdırıldığını və ya istiqamətləndirildiyini göstərir. Son olaraq məqalədə valideynlərin qərar verməsinin mürəkkəbliyi vurğulanır. Həmçinin qeyd olunur ki, artan özəlləşdirmə şəraitində dövlət siyasətləri müxtəlif valideyn gözləntilərini tam şəkildə yerinə yetirmək qabiliyyətini şübhə altına alır.

Maarit Alasuutari, Ville Ruutiainen & Kirsti Karila (2024) Enrolling the child in private early childhood education and care in the context of universal service provision, Education Inquiry, 15:1, 126-146, DOI: 10.1080/20004508.2023.2282792